**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 172 nömrəli qərarı ilə təsdiq edilmiş "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası"nda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 89 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 172 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 596) ilə təsdiq edilmiş "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3-cü və 1.4-cü bəndlərdə "yığıncaqların keçirilməsidir" sözləri "keçirilir" sözü ilə əvəz edilsin.

2. 2.2.2-ci yarımbənddən "və "elektron hökumət" portalında" sözləri çıxarılsın.

3. 2.2.5-ci və 2.2.6-cı yarımbəndlərdə "ictimai dinləmələrin qrafiki və keçiriləcəyi yer və ictimai müzakirənin müddəti, keçirilməsi qaydaları" sözləri "ictimai dinləmənin və müzakirənin vaxtı və keçirilməsi müddəti" sözləri ilə əvəz edilsin.

4. 2.2.9-cu yarımbənddə "iştirakının təmini" sözləri "məlumatlandırılması" sözü ilə, "keçirilmə vaxtı və yeri" sözləri "keçiriləcəyi rəsmi internet səhifəsinin ünvanı, vaxtı və keçirilməsi müddəti" sözləri ilə əvəz edilsin.

5. Aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. Aidiyyəti orqanların, vətəndaş cəmiyyəti institutlarının və ayrı-ayrı vətəndaşların təklifi və ya öz təşəbbüsü əsasında ictimai dinləmə və müzakirəni təşkil edən dövlət orqanının qərarı ilə hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirələr yığıncaq formasında keçirilə bilər. Bu halda ictimai dinləməni və ictimai müzakirəni təşkil edən dövlət orqanı belə yığıncağın vaxtı, müddəti, keçiriləcəyi yer, keçirilməsi qaydası və nəticələrin açıqlanacağı müddətlər barədə məlumatı öz internet saytında yerləşdirir. Belə yığıncaqda aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarının səlahiyyətli nümayəndələrinin, mütəxəssis və ekspertlərin iştirakının təmini məqsədi ilə onlara ictimai dinləmə və müzakirəni təşkil edən dövlət orqanı tərəfindən yığıncağın keçirilməsi vaxtı və yeri göstərilməklə rəsmi dəvət göndərilir.".

6. 3.2-ci bənddən "ayrı-ayrı vətəndaşların," və "hüquqi cəhətdən" sözləri çıxarılsın.

7. 3.4-cü bənddə ", sosioloji, ekoloji və sair zəruri hallar" sözləri "və ekoloji" sözləri ilə əvəz edilsin.

8. 4.3-cü bənd ləğv edilsin.

9. 5.2.2-ci yarımbəndə “komissiyasının” sözündən sonra “və ya bələdiyyə sədrinin müəyyən etdiyi bələdiyyə üzvü və ya qulluqçusunun” sözləri əlavə edilsin və həmin yarımbənddə “həmin layihələri hazırlayan müvafiq komissiyalar” sözləri “müvafiq bələdiyyə sədrləri” sözləri ilə əvəz edilsin.

10. 5.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“5.2.3. Şəhər və şəhər rayonu bələdiyyələrində bələdiyyə sədri hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili məqsədi ilə bu Qaydanın 2.2.1-ci, 2.2.3-cü, 2.2.4-cü, 2.2.6 - 2.2.9-cu yarımbəndləri ilə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsini təmin edir. Qəsəbə və kənd bələdiyyələrində bələdiyyə sədri hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin təşkili məqsədi ilə kənd ərazisində hamının görə biləcəyi yerdə yerləşdirilən məlumat lövhəsində normativ xarakterli aktın layihəsi ilə birlikdə layihənin hansı normativ hüquqi akt əsasında qəbul olunması və həmin normativ hüquqi aktın müvafiq norması, ictimai dinləmənin və müzakirənin vaxtı, müddəti, keçiriləcəyi yer, rəy, irad və təkliflərin təqdim edilməsi qaydası, onlara baxılması və nəticələrin açıqlanacağı müddətlər barədə məlumatların göstərilməsini təmin edir.”.

**Azərbaycan Respublikasının Baş naziri   Artur Rasi-zadə**

Bakı şəhəri, 21 noyabr 2014-cü il
№ 376